# Məqsəd insanların sağlamlığıdır

*Koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə 2021-ci ilin yanvar ayının 19-dan ölkəmizdə, o cümlədən Qəbələ rayonunda əhalinin vaksinasiya prosesinə başlanılmışdır.*

*Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında COVİD-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası" təsdiq edilib. Vaksinasiya Strategiyaya uyğun olaraq birinci və ikinci mərhələlər üzrə əhali qrupları arasında aparılmaqdadır. Birinci mərhələdə səhiyyə işçiləri, 65 yaşdan yuxarı şəxslər və hüquq mühafizə orqanları tərəfindən əksepidemik tədbirlərə cəlb olunan heyət peyvəndə cəlb edilməyə başlanılıb. İkinci mərhələdə isə tibbi yüksək riskli olanlara (tənəffüs sistemi, hemodializ, şəkərli diabet, piylənmə kimi xroniki xəstəlikləri olanlar), 50 yaşdan yuxarı şəxslərdə ən azı bir xroniki xəstəlikləri olanlar peyvəndə cəlb olunacaqlar. Həmçinin bu mərhələdə təhsil və sosial sektorda çalışanlar, ASAN xidmət və DOST mərkəzləri, ictimai nəqliyyat sektorunda işləyənlər, telekommunikasiya operatorları, poçt və bank sektorunda çalışan, əhali ilə birbaşa təmasda olan şəxslər peyvənd olunacaqlar. Eləcə də yüksək riskli şəraitli işlərdə çalışan milli və regional təhlükəsizlik, ədliyyə, maliyyə və s. şəxslərin ikinci mərhələdə peyvəndə cəlb olunması nəzərdə tutulub.*

*Əhali arasında COVİD-19 infeksiyası əleyhinə vaksinasiyanın aparıldığı mərhələlərdə vətəndaşların marağını nəzərə alaraq əməkdaşımız Qəbələ RMX RHŞ-nın direktor müavini Cavanşir Məlikovla görüşərək müsahibə almışdır. Həmin müsahibəni qəzetimizin oxucularına təqdim edirik.*

***Peyvəndlərin əlçatanlığı təmin ediləna qədər özünüzü necə qorumalı?***

Evdən çıxdıqda tibbi maskadan istifadə, fiziki məsafənin gözlənilməsi, insanların kütləvi toplaşdığı məkanlardan uzaq durmaq, gigiyena qaydalarına riayət etmək vacibdir.

***Fiziki məsafə, maska istifadəsi kimi tədbirlərə riayət edildikdə, vaksinasiyanın aparılmasına ehtiyac varmı?***

Respirator pandemiya ilə mübarizədə bütün görülən tədbirlərin müəyyən qoruyuculuğu vardır amma heç biri ideal mexanizm deyildir, eyni zamanda biri digərini əvəz etmir. Ən təsirlisi peyvəndlərdir. Pandemiyanın qarşısının alınması məqsədi ilə bütün




vasitələrdən istifadə olunmalıdır. Peyvənd orqanizmdə virusa qarşı immun cavabın formalaşmasını təmin edir. Digər qoruyucu tədbirlər isə, yoluxma riskinin azalmasına xidmət edir.

***COVID-19 infeksiyası keçirib sağalmış şəxslər peyvənd olunmalıdırmı?***

Bu xəstəlikdən sağalanlarda qoruyuculuq bir müddət davam edir. Qoruma səviyyəsi müəyyən müddət təkrar yoluxmanın qarşısını aldığı üçün, COVID-19-dan sağalmış insanlar peyvənd tətbiq ediləcək qrupa daxil deyildir. Lakin tibbi cəhətdən həmin şəxslərin xəstəliyi nə zaman keçirməsindən, qanındakı anticisim səviyyəsindən asılı olmayaraq peyvənd oluna bilər. Hal-hazırda aktiv koronavirus xəstələrinə peyvənd olmaz.

***İnaktivləşdirilmiş peyvənd vurulduqdan sonra xəstəliyə qarşı qoruyuculuq nə qədər davam edir?***

Klinik tədqiqatlarda inaktivləşdirilmiş (öldürülmüş) peyvəndin yüksək qoruyucu təsirinin olduğu bildirilmişdir. Lakin vaksinlərin qoruyuculuq müddəti hal-hazırda məlum olmadığı üçün, əlavə araşdırmalara ehtiyac vardır.

***Peyvənd neçə dozada istifadə ediləcək?***

18 yaşdan yuxarı olan şəxslərdə 28 gün fasilə ilə cəmi iki doza tətbiq ediləcək.

**Peyvəndin hər iki dozası tətbiq edilən insanların fiziki məsafə, maska istifadəsi kimi tədbirlərə riayət etməsinə ehtiyac varmı?**

Bəli. Bu mərhələdə bütün qoruyucu tədbirlərin istifadəsi vacibdir. Peyvənd nəticəsində yaranmış immunitet insanları, ağır xəstəlik keçirməkdən qoruyur. Peyvəndin vurulmasından sonra xəstəliyə qarşı qoruyuculuq ümumilikdə bir neçə həftə ərzində formalaşır. Səhiyyə rəsmiləri tərəfindən qorunma tədbirlərinin artıq zəruri olmadığı açıqlanana qədər, bu proses davam etməlidir.

***Uşaqlara peyvənd vurulacaqmı?***

TƏBİB-in İdarə heyəti yanında COVID-19 virus infeksiyası ilə bağlı müəyyən tədbirlərin və yeniliklərin öyrənilməsi ilə bağlı Tibbi-Elmi Komitə tərəfindən müəyyən edilmiş risk qrupunda 18 yaşına qədər şəxslərin yer almaması səbəbindən, bu kateqoriyada peyvəndin istifadəsi nəzərdə tutulmayıb.

***Vaksinasiya məcburi olacaqmı?***

Azərbaycanda uşaq peyvəndləri daxil olmaqla, vaksinasiya məcburi deyil. Bununla yanaşı, peyvənd xəstəliklərdən qorunmaq üçün ən effektiv vasitədir. Peyvənd olunmaq, insanın cəmiyyətə qarşı məsuliyyətliliyinin təcəssümüdür.

***İnaktivləşdirilmiş peyvənd hamilələrdə istifadə oluna bilərmi?***

Buna dair məlumatlar, araşdırmalar mövcud deyil. COVID-19-a yoluxma riski yüksək olan hamilələrə könüllü müraciət əsasında peyvənd tətbiq edilə bilər. Peyvəndin hamiləliyinin ilk üç ayında istifadəsi tövsiyyə edilmir.

***İnaktivləşdirilmiş COVID-19 peyvəndi südverən analara tətbiq edilə bilərmi?***

Laktasiya dövründə COVID-19 peyvəndinin istifadəsinə dair məlumatlar mövcud deyil. COVID-19-a yoluxma riski yüksək olan südverən analara peyvəndin vurulması qadının könüllü müraciəti əsasında həyata keçirilir.

***COVID-19 əleyhinə peyvəndin surətli şəkildə və qısa zamanda meydana gəlməsinin səbəbi?***

COVID-19 peyvəndləri, 2009 ildə donuz qripi epidemiyasında tətbiq edilən peyvəndlərdən sonra yüksək sürətlə ən qısa zamanda hazırlanan ilk peyvənddir. Virus ailəsinin məlum olması, koronavirusların bioloji xüsusiyyətlərinin, təsiredici mexanizmlərinin, elm tarixində müəyyən bir yolun qət edilməsi, məlumatların asan əlçatanlığı, molekulyar genetikanın inkişafı, cihaz texnologiyalarının, istifadə olunan metodların inkişaf etdirilməsi, alimlər, tədqiqatçılar arasında məlumatların surətli paylaşılması, klinik tədqiqatlarda müşahidə olunan sürətli irəliləyiş, məsələnin təcili həlli istiqamətində atılan addımlar peyvəndin istehsal prosesini sürətləndirdi.

***COVID-19 peyvəndi təhlükəsizdirmi?***

Mərhələlər üzrə klinik tədqiqatlar aparılmadan, müvafiq nəticələr müxtəlif qurumlarla şəffaf şəkildə paylaşılmadan, hər hansı bir peyvənd təsdiqlənə və ya maliyyə bazarına çıxarıla bilməz. Vaksinlərə dair tədqiqatları aparan təşkilat inkişaf və istehsal prosesi zamanı beynəlxalq keyfiyyət standartlarına uyğun fəaliyyət göstərməlidir.

***Ölkəmizdə hansı peyvənd istifadə olunacaq?***

İlk olaraq inaktivləşdirilmiş COVID-19 peyvəndinin istifadəsi nəzərdə tutulmuşdur.Həmin vaksin Çin Xalq Respublikasının istehsalı olan "Sinovac" vaksinidir.

***İnaktivləşdirilmiş COVID-19 peyvəndi nədir?***

İnaktivləşdirilmiş peyvənd, COVID-19 törədicisi olan SARS-CoV-2 virusunun kimyəvi və fiziki üsullarla xəstəlik törətmə qabiliyyətinin aradan qaldırılması ilə əldə edilən, orqanizmdə immun cavabı formalaşdıran öldürülmüş virus əsasında hazırlanır.

***Peyvənd kimlərə vurulacaq?***

Xəstəliyə yoluxma, xəstəliyin yayılma riski, ictimai fiziki fəaliyyətə neqativ təsirlər qiymətləndirilərək, peyvənd olunacaq qruplar müəyyən edilərək, sıra ilə prosesin idarə olunması təmin ediləcəkdir. Bu da birinci və ikinci mərhələlər üzrə əhali qrupları arasında aparılır.

***İlk növbədə niyə məhz tibb işçilərinə peyvəndin vurulması planlanmışdır?***

Tibb işçiləri xəstəliyə yoluxma riskinin yüksək olduğu kateqoriyaya aiddir. Tibb işçilərinin yoluxmaması, tibbi xidmətlərin fasiləsizliyinin təmin edilməsi məqsədi ilə müvafiq qrup olaraq nəzərdə tutulmuşdur.

***Vaksin harada vurulur, ödənişlidirmi?***

Vaksinasiya xüsusi məqsədlə təşkil edilmiş peyvənd məntəqələrində və ya səyyar peyvənd məntəqələrində aparılır.Peyvəndin aparılması ödənişsizdir.

**Digər peyvəndlər COVID-19 yoluxmasının qarşısının alınması üçün yararlıdırmı?**

Digər peyvəndlər COVİD-19 yoluxmasının qarşısını almır!

**Peyvədləmədən sonra əldə edilmiş immunitetlə COVID-19 xəstəliyi nəticəsində qazanılan immuniteti müqayisə etdikdə davam etmə müddəti barədə nə demək olar?**

İnsanın xəstəlik nəticəsində (təbii) qazandığı immunitet keçirilən xəstəliyə və fərdi xüsusiyyətlərə görə dəyişir. Bəzi araşdırmalar nəticəsində təbii immunitetin uzunmüddətli olmadığı məlum olmuşdur. Göstərilən məlumatlar tam əsaslandırıla bilmədiyi üçün, uzunmüddətli tətdiqatlar zəruridir.

**Vaksinin effektivliyi barədə məlumatlar necə əldə ediləcək?**

Peyvəndlərin tətbiqindən öncə aparılmış klinik sınaqlar göstərmişdir ki, peyvənd olunmamışlara nisbətən peyvənd tətbiq edilən qrupda xəstələnmə halları əhəmiyyətli dərəcədə az rast gəlinmişdir.

***İnaktivləşdirilmiş COVID-19 peyvəndlərinin əlavə təsirləri mövcuddurmu?***

Bu günə qədər klinik tədqiqatlarda və ya peyvənd tətbiqi zamanı ciddi əlavə təsirlərə rast gəlinməmişdir. Peyvəndləmədən sonra müşahidə olunan əlavə təsirlər yüngül olaraq qiymətləndirilir. Buraya yorğunluq, baş ağrısı, qızdırma, titrəmə, əzələ, oynaq ağrıları, qusma, ishal, peyvənd yeridilən nahiyyədə ağrı, qızartı, şişkinlik və s. aiddir. Bu əlamətlər çox təsadüfi hallarda baş verə bilər. Lakin nadir hallarda allergik reaksiyaların yarana biləcəyindən, hər hansı bir narahatlıq hiss edildikdə ən yaxın tibb məntəqəsinə müraciət etmək, həkimə daha öncədən peyvəndin vurulması barədə məlumatın verilməsi zəruridir.

***Təmaslı olan, PZR test nəticəsi neqativ olan şəxs peyvənd olunmalıdırmı?***

COVİD-19 infeksiyasına yoluxmuş şəxslə təmasda olanda test nəticəsi neqativ olduqda 14 gün təmas müddəti başa çatdıqdan sonra peyvənd oluna bilər.

Yumurtaya qarşı allergiyası olanlara bu peyvənd vurula bilərmi? Bəli, istifadə oluna bilər.

***Vaksinasiyanın birinci mərhələsində 65 yaşdan yuxarı şəxslərə vaksin tətbiqinin səbəbləri?***

65 yaşdan yuxarı şəxslərdə xəstəliyi ağır formada keçirmə, xəstəxanada stasionar müalicə, ölüm riskinin yüksək olduğu üçün peyvənd xüsusi olaraq bu qrupa tətbiq edilir.

Tam əminliklə elmi-tibbi cəhətdən sübut olunmuşdur ki, COVİD-19 pandemiyasından qurtarmağın yeganə yolu bu xəstəliyə qarşı risk qruplarının peyvənd olunmasıdır.

***Müsahibəyə görə çox sağ olun.***

**«Qəbələ»**

# Vergi qanunvericiliyinə (inzibatçılığına) edilmiş dəyişikliklər barədə

Məlum olduğu kimi, artıq 01.01.2021-ci il tarixdən Tibbi Sığorta haqqında Qanunun mərhələli şəkildə tətbiqinə, eyni zamanda ölkə üzrə icbari tibbi sığortanın tətbiqinə başlanılır.

Aşağıda qeyd olunan müddəalar istisna olmaqla vergitutmanın ümumi əsasları, vergilərin ödənilməsi qaydaları (ödənilməsi mənbələri istisna olmaqla), vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydaları ilə bağlı Vergi Məcəlləsinin müddəaları icbari tibbi sığorta haqqlarına münasibətdə də tətbiq olunacaqdır.

- Vergi qanunvericiliyi ilə bağlı hüquq pozuntusuna görə məsuliyyətə cəlb etmənin müddəti;

- Vergi orqanları tərəfindən vergi ödəyicisinin vergisini, faizləri və maliyyə sanksiyasını hesablamaq və hesablanmış məbləği yenidən hesablamaq, hesablanmış (yenidən hesablanmış) məbləği tutmaq hüququ ilə əlaqədar müəyyən edilmiş müddətlərlə bağlı məhdudiyyətlər;

- Vergi ödəyicisinin vergilərin, faizlərin və maliyyə sanksiyalarının hesablanmasını və hesablanmış məbləğin yenidən hesablanmasını, artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının məbləğinin qaytarılmasını və ya əvəzləşdirilməsini tələb etmək hüququ ilə əlaqədar müəyyən edilmiş müddətlərlə bağlı məhdudiyyətlər;

- Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının məbləğlərinin qaytarılması (yalnız aksiz vergisinin icbari tibbi sığorta fonduna ödənilən hissəsinə münasibətdə);

- Qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə təmin edilmiş vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının ümidsiz borj hesab edilərək silinməsi müddəti.

Məlumat üçün bildiririk ki, "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli 725-IQ nömrəli Qanununa əsasən:

- vergi Məcəlləsinə əsasən sahibkarlıq fəaliyyətinin və ya digər vergi tutulan əməliyyatlarının müvəqqəti dayandırıldığı hallar istisna olmaqla, vergi ödəyicisi kimi vergi uçotuna alınmış fiziki şəxslər (fərdi sahibkarlar, xüsusi notariuslar, vəkillər kollegiyasının üzvləri) minimum aylıq əməkhaqqının 4 faizi miqdarında icbari tibbi sığorta üzrə sığorta haqqı hesablamalı, hər ay üçün sonrakı ayın 15-dən gec olmayaraq tam məbləğdə ödənilməli və hər rübdən sonrakı ayın 20-dən gec olmayaraq ödənilmiş icbari tibbi sığorta haqları barədə bəyannamə təqdim edilməlidir.
- mülki-hüquqi müqavilələr əsasında işləri (xidmətləri) yerinə yetirən fiziki şəxslərə münasibətdə sığortalı qismində çıxış edən onları işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edən şəxslər tərəfindən gəlirlərinin 8000 manatadək olan hissəsinin 2 faizi, 8000 manatdan yuxarı olan hissəsinin 1 faizi miqdarında icbari tibbi sığorta üzrə sığorta haqqı hesablamalı, hər ay üçün sonrakı ayın 15-dən gec olmayaraq tam məbləğdə ödənilməli və hər rübdən sonrakı ayın 20-dən gec olmayaraq ödənilmiş icbari tibbi sığorta haqları barədə bəyannamə təqdim edilməlidir.

Mükəlləfiyyət növündən asılı olmayaraq, borcu olmayan bütün vergi ödəyiciləri tərəfindən rekvizitlərin səhv göstərilməsi və (və ya) bank əməliyyatlarının səhv icra olunması nəticəsində səhv ödənilmiş icbari tibbi sığorta haqları 45 gün ərzində Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2019-cu il 16 iyul tarixli 313 nömrəli Qərarı ilə təsdiq edilmiş "Artıq ödənilmiş vergilərin, məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının, faizlərin və maliyyə sanksiyalarının qaytarılması Qaydaları" ilə müəyyən edilmiş formada ona geri qaytarılacaqdır.

Qeyd olunanlar Vergi Məcəlləsinin 1.4-cü, 85.5-1-ci, 87.5-ci, "Tibbi sığorta haqqgnda" Qanunun 15-2-ci, 15-10-cu, 15-11-ci, 15-24-cü, 16-4-cü maddələri ilə tənzimlənir.

Əlavə olaraq bildiririk ki, "Tibbi sığorta haqqında" Qanunun 15-2.2.1 - 15-2.2.3-cü maddələrində nəzərdə tutulmuş şəxslərə münasibətdə sığorta haqqının hesablanmasına və ödənilməsinə nəzarət, sığorta haqları üzrə hesabatın vaxtında təqdim edilməməsinə, hesablanmış sığorta haqlarının azaldılmasına və ya yayındırılmasına görə maliyyə sanksiyalarının tətbiqi, sığorta haqqı üzrə yaranmış borcların alınması, sığorta haqqının vaxtında ödənilməməsinə görə faizlərin hesablanması və artıq ödənilmiş sığorta haqqının qaytarılması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən olunmuş qaydada həyata keçirilir.

**10 saylı Ərazi Vergilər İdarəsi.**